**Azərbaycan üçüncü dövr "Ətraf mühit üzrə fəaliyyətin icmalı" hesabatını təqdim edib**

COP29 çərçivəsində gündəliyə salınmış BMT-nin Avropa İqtisadi Komissiyası tərəfindən hazırlanan Azərbaycanın "Ətraf mühit üzrə fəaliyyətin icmalı" (EPR) hesabatının təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə BMT-nin Avropa İqtisadi Komissiyasının icraçı katibi, BMT-nin Azərbaycandakı rezident nümayəndəsi, ekologiya və təbii sərvətlər nazirinin müavini, beynəlxalq təşkilatların və müvafiq qurumların nümayəndələri iştirak ediblər.

Tədbirdə yeni hazırlanan üçüncü dövr hesabatın nəticələri açıqlanıb, ikinci dövr hesabatın hazırlandığı dövrdən etibarən əldə edilən irəliləyişlər müzakirə edilib, yeni tövsiyələrin icrasına maraqlı tərəflərin cəlb olunması üzrə dialoq aparılıb.

"Ətraf mühit üzrə fəaliyyətin icmalı" hesabatının məqsədi Azərbaycanın ekoloji və iqtisadi hədəflərini uzlaşdırmaq, bu sahədə milli siyasətin formalaşdırılmasına dəstək olmaq və ölkənin beynəlxalq ekoloji öhdəliklərinin icrasını qiymətləndirməkdir.

Sənəd ətraf mühitin idarə olunması, təbii sərvətlərin səmərəli istifadəsi, ekoloji məsələlərin digər sektorlara inteqrasiyası, həmçinin ümumi ekoloji fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 78 tövsiyəni əhatə edir.

Azərbaycan üzrə birinci dövr hesabat 2003-cü, ikinci dövr hesabat isə 2011-ci ildə hazırlanıb. Üçüncü dövr hesabat ölkənin ətraf mühit siyasətinin davamlı inkişafını təmin etmək üçün yeni yanaşmalar və tövsiyələrə əsaslanıb.

"Ətraf mühit üzrə fəaliyyətin icmalı" hesabatı Azərbaycanın ətraf mühit sahəsində həyata keçirdiyi tədbirlərin beynəlxalq standartlara uyğunluğunu qiymətləndirmək və inkişaf yollarını müəyyənləşdirmək baxımından vacib sənəd hesab edilir.

**AZƏRTAC**
**2024, 16 noyabr**